# Aida İmanquliyeva dünyanın böyük alim qadınlarına xas olan bütün keyfiyyətləri təcəssüm etdirirdi

**Azərbaycan qadını ... Bu adi sözlərdə nə qədər dərin məna var - təbii gözəllik, incə zövq, iti zehin, böyük ürək və ən başlıcası istedad - qəlbinin can atdığı, əllərinin toxunduğu hər şeydə istedad.**

Azərbaycan torpağı bəşəriyyətə çox zəkalı qadınlar bəxş edib: Nüşabə, Məhsəti, Natəvan, Həcər, Zərifə Əliyeva, Züleyxa Seyidməmmədova, İzzət Orucova ... Bəşər tarixinə və dünya mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazılmış bu adlar indi də hər kəsin qəlbində kövrək duyğular oyadır. Bu qadınları böyük sevgi və xalqımıza, ölkəmizə görə hədsiz qürur hissi ilə xatırlayırıq.

Belə qadınlar sırasında ilk azərbaycanlı ərəbşünas, filologiya elmləri doktoru, şərqşünaslıq üzrə professor Aida Nəsir qızı İmanquliyevanın adını çəkmək istərdik. Bu gün Aida İmanquliyevanın adı ölkəmizin hüdudlarından uzaqlarda da məşhur olan Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Yusif Ziya Şirvani, Əbdülkərim Əlizadə, Həmid Araslı, Ziya Bünyadov, Mübariz Əlizadə, Rüstəm Əliyev, Ələsgər Məmmədov, Rəhim Sultanov, Qəzənfər Əliyev kimi görkəmli alimlərlə bir sırada çəkilir.

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda, tanınmış jurnalist, pedaqoq, Əməkdar Elm Xadimi, Azərbaycan mətbuatının ustadlarından biri, uzun müddət "Bakı" və "Baku" qəzetlərinin redaktoru vəzifəsində çalışmış Nəsir İmanquliyevin ailəsində doğulub. 1957-ci ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinə daxil olub. Sonra elə həmin universitetin Şərq xalqları və ədəbiyyat tarixi kafedrasının aspirantı olub, təhsilini keçmiş SSRİ Elmlər Akademiyasının Asiya Xalqları İnstitutunda davam etdirib.

Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru, Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin üzvü, SSRİ-də Şərq ədəbiyyatının tədqiqatı üzrə Ümumittifaq Əlaqələndirmə Şurasının üzvü, Azərbaycanda və bütün Sovet İttifaqında yeni ərəb ədəbiyyatı üzrə əsas tədris kursunu yaradanlardan biri olub.

Bu zərif, gözəl qadın üç monoqrafiyanın ("Mixail Nuayme və Qələm Assosiasiyası", Moskva,1975; "Cübran Xəlil Cübran", Bakı, 1975; "Yeni ərəb ədəbiyyatının korifeyləri", Bakı, 1991), 70-dən çox elmi məqalənin müəllifi və Şərq ədəbiyyatına həsr edilmiş bir neçə əsərin redaktoru olub. Professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslığını bir çox yaxın və uzaq ölkələrdə elmi konfrans və simpoziumlarda ən yüksək səviyyədə təmsil edib.

Övladlarını dərin məhəbbətlə və zərif duyğularla sevən bir ana kimi o, gənc nəslin qarşısında öz borcunu da layiqincə yerinə yetirib. Aida xanım yüksək ixtisaslı ərəbşünas kadrların böyük bir nəslini yetişdirib, onların inkişafına dəstək verib, şəxsi nümunəsi ilə öz arxasınca aparıb. Aida İmanquliyeva dünyanın böyük alim qadınlarına xas olan bütün keyfiyyətləri təcəssüm etdirirdi.

Görkəmli alim Aida İmanquliyevanın ömür yolunun qısa olmasına baxmayaraq o, zəngin yaradıcılıq irsi qoyub gedib. Öz fundamental araşdırmaları ilə həm Azərbaycan, həm də dünya şərqşünaslığını zənginləşdirib. O, şərqşünaslıq elminin tarixinə yeni və müasir ərəb ədəbiyyatının ən nüfuzlu, fundamental tədqiqatçılarından biri kimi əbədi daxil olmuş azsaylı mütəxəssislərdən biridir. Belə ki, Aida İmanquliyevanın qələminin məhsulları olan, yeni ərəb mühacir ədəbiyyatına, bu ədəbiyyatın Cübran Xəlil Cübran, Əmin ər-Reyhani, Mixail Nuayme, İlya Əbu Madil kimi görkəmli, Şərq ruhunu Qərb təfəkkürü ilə birləşdirən nümayəndələrinin həyat və yaradıcılığına həsr olunmuş tədqiqatları bu gün də öz orijinallığını, aktuallığını, zənginliyini, nəzəri dərinliyini, konseptuallığını qoruyub saxlayır.

Böyük ziyalı, görkəmli alim Aida İmanquliyeva Qərb və rus ədəbiyyatını dərindən bilirdi. O, öz elmi-ədəbi fəaliyyəti sayəsində Şərqi və Qərbi birləşdirən görkəmli alimlərdən biri idi. Aida İmanquliyevanın əsərləri nəinki Azərbaycanda və keçmiş Sovet İttifaqında, həmçinin bütün Qərbdə və dünyada şərqşünaslığın uğurlarına həsr edilmiş tədqiqatlardır. Bu əsərlər bu gün də öz elmi əhəmiyyətini və aktuallığını itirməyib. Onun metodologiyası ümumbəşəri dəyərlərə əsaslanırdı.

Aida xanım öz qısa ömrünün yarısını Azərbaycan elminin inkişafına, Azərbaycan şərqşünaslığının təşkilinə həsr edib. Bu alimi tanıyanlar, onun tələbələri Aida xanımı dərin biliyinə, mənəvi zənginliyinə görə sevirdilər. Tələbələri onun davranışına və rəftarına, mühazirələrinə heyran idi. Onun hər bir hərəkətində nəciblik duyulurdu. Ulu Tanrı ondan heç nəyi əsirgəməmişdi: gözəllik, ağıl, nəcabət. Aida



xanım İmanquliyevanı səciyyələndirən əsas cizgilər, insani keyfiyyətlər özünə qarşı tələbkarlıq, ailəsinə tükənməz sevgi hissi idi. Təəssüf ki, o, yaradıcılıq qüvvələrinin çiçəkləndiyi bir dövrdə dünyasını dəyişdi.

Aida İmanquliyeva təkcə ərəbşünas deyil, həm də fəlsəfə tədqiqatçısı idi. O, sivilizasiyalararası qarşılıqlı əlaqələri üzə çıxarmağa, Qərb və Şərq təfəkkür tərzinin ortaq və fərqli xüsusiyyətlərini, bu problemlərin Azərbaycan üçün xüsusi aktuallıq kəsb edən fəlsəfi və ədəbi müstəvilərə proyeksiyasını açıqlamağa nail olmuş tədqiqatçı idi.